# Azərbaycanın xarici siyasəti milli maraqlara, dünyada birgəyaşayışa, sülhə və tərəqqiyə xidmət edir

**Ölkəmizin iqtisadi qüdrəti ilbəil artmaqda, beynəlxalq siyasi arenada nüfuzu daim möhkəmlənməkdədir. 1993-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs daim öz müasirliyini nümayiş etdirir və hazırda ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qloballaşan dünyadakı proseslərə adekvat cavabla yeni məzmun və keyfiyyətlə davam etdirilir. Bu gün dünyanın tanınmış siyasətçiləri, ekspertləri və mütəxəssisləri Azərbaycanın son illər xarici siyasətdə əldə etdiyi nailiyyətlərin ölkəmizin nüfuzunu daha da artırdığını, beynəlxalq birliyə inteqrasiya prosesində özünəməxsus pozitiv təsirlərə malik olduğunu vurğulayırlar. Azərbaycan Prezidenti İlham Əliyev ölkənin beynəlxalq nüfuzunun səviyyəsi barədə deyib: "Ölkəmizin beynəlxalq nüfuzu gündən-günə artır. Azərbaycan dünya birliyinin etibarlı, dəyərli üzvüdür. Bütün həmkarlarımla keçirilən görüşlərimdə Azərbaycana qarşı böyük hörmət müşahidə olunur. Azərbaycanda gedən işlər dünya birliyi tərəfindən izlənilir və böyük təqdirlə qarşılanır. Bizim xarici siyasətimiz çox fəaldır, çevikdir, milli maraqlar üzərində qurulubdur və milli maraqlar bizim üçün prioritetdir".**

Xarici siyasətdə milli maraqlardan çıxış etmək ölkəyə böyük siyasi və iqtisadi dividendlər qazandırıb, həm də onun siyasi nüfuzunu möhkəmlədib, artırıb. Ölkədə aparılan siyasi, iqtisadi, hüquqi islahatlar dövlətin və cəmiyyətin hərtərəfli inkişafına çox güclü təməl yaradıb. Daxili siyasətlə xarici siyasətin bir-birini tamamlaması bütün sahələrdəki inkişafın dinamizmini qoruyur. Aydındır ki, dünyada yaşayıb birlikdən təcrid olmaq məhvə bərabərdir. *İstər-istəməz inteqrasiya prosesinə qatılacaqsan. Lakin bu* prosesdə o dövlət udur ki, onun öz milli maraqlarına əsaslanan xarici siyasət doktrinası və konsepsiyası olsun.

Ölkəmizin müstəqilliyini bərpa etdiyi 24 illik dövrü sübut etdi ki, dövlətimizin yürütdüyü xarici siyasət kursu ulu öndərin müəyyənləşdirdiyi xəttə sadiqdir, milli maraqlara əsaslanır və dövrün çağırışlarına daim operativ cavab verir və demək olar ki, alternativsizdir. Ümummilli lider ciddi dəyişiklər və prinsipiallıq əsasında Azərbaycanın geosiyasi vəziyyətinin beynəlxalq siyasətə təsiretmə imkanlarını dərin nəzəri təhlil və praktiki tətbiq zəminində, mövcud çağırışlara cavabvermə reallıqlarını hesablayaraq xarici siyasət kursunu müəyyənləşdirdi və sistemli addımlar atıldı.

Ulu öndər 1993-cü ildə andiçmə mərasimində həyata keçirilən xarici siyasət konsepsiyası barədə demişdir: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilmişdir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir".

Ötən illər sübut etdi ki, qarşıya qoyulan bu vəzifə böyük uğurla və səriştə ilə yerinə yetirilir. Hazırda Azərbaycan bütün dünya üçün açıqdır, çox geniş siyasi, iqtisadi, humanitar və mədəni əlaqələrə malikdir. Ölkəmiz dünyanın ən nüfuzlu təşkilatlarının, birliklərinin, iqtisadi və maliyyə qurumlarının nüfuzlu üzvüdür. Ümummilli lider xarici siyasətdə beynəlxalq təşkilatlarda üzvlüyə də mühüm əhəmiyyət verirdi. Bu diqqətin sayəsində Azərbaycan BMT-də, ATƏT-də, Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında və digərlərində ən fəal üzvlərdəndir. Bundan başqa, ölkəmiz Avropa Birliyi, NATO, Dünya Bankı və s. qurumlarla səmərəli əməkdaşlıq edir. Müasir dünyamızda beynəlxalq gərginlik, milli, dini münaqişələr, toqquşmalar, terror və digər kataklizmlər səngimir. Belə şəraitdə qlobal həmrəylik və ümumi təhlükəsizlik məsələləri həyati əhəmiyyət kəsb edir və ön mövqedədir. Bu məsələlərin həlli isə yalnız dünya və Avropa dövlətlərinin qoşulduğu nüfuzlu təşkilatlar çərçivəsində beynəlxalq hüquq normaları ilə mümkündür. Lakin çox təəssüf ki, müasir dünyamızda beynəlxalq normalara heç də həmişə riayət edilmir. "Kim güclüdür, o da haqlıdır" prinsipi tez-tez önə çıxır. Beynəlxalq münaqişələrdə və münasibətlərdə ikili standartlar tətbiq edilir. Bu da ədalətsizliyə və cəzasızlığa yol açır. Bunun ən bariz nümunəsi Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinə dünyada aparıcı dövlətlərin və güclərin ikili standartlarla yanaşmasıdır. Dövlət rəhbərliyi bu ədalətsiz mövqeyə daim etiraz edib və beynəlxalq normalar çərçivəsində münaqişənin həllini tələb edib. Lakin bu gün də ikili standartlarla yanaşma davam edir.



Dünyada islamafobiya, ksenofobiya, antisemitizm meyilləri artır, terrorizm, ekstremizm, radikalizm güclənir. Biz bu meyilləri həm Avropada, həm Yaxın Şərqdə, həm də dünyanın digər bölgələrində görürük. Azərbaycan xarici siyasətində dünyaya birgəyaşayış, sülh, əməkdaşlıq, multikulturalizmə sadiqlik, sosial-iqtisadi inkişaf və digər pozitiv amilləri nümayiş etdirir. Ölkəmizdə bu problemlər öz həllini tarixən tapıb və müasir dövrümüzdə dövlətin yürütdüyü siyasətin əsas mahiyyətini təşkil edir. Dövlət başçısı xarici siyasətin istiqaməti barədə deyib: "Biz Azərbaycanda bu işləri ən yüksək səviyyədə tənzimləmişik. Bizim gələcək inkişafımız uğurla davam etdiriləcək. Ancaq biz istəyirik ki, hər yerdə belə olsun. Əgər hər yerdə belə olsa, o zaman dini zəmində qarşıdurmalar olmayacaq, qan tökülməyəcək və insanlar yaradıcılıqla məşğul olacaq, öz həyatlarını quracaq, ailələrinə diqqət yetirəcəklər. Ona görə də Azərbaycanda multikulturalizmlə, dinlərarası dialoqla bağlı keçirilən tədbirlərin çox böyük mənası var... Ancaq biz digər sahələrdə,—sosial ədalət, iqtisadi inkişaf, dinlərarası dialoq,—artıq bütün lazımi tədbirləri görmüşük ki, bax, bu möhkəm təməl qurulub. Biz istəyirik ki, dünyada da belə olsun. Biz istəyirik ki, ölkələr arasındakı əlaqələr əməkdaşlıq üzərində qurulsun. Rəqabət üzərində qurulmasın, xoş niyyət üzərində qurulsun. Biz öz işlərimizi bu istiqamətdə davam etdirəcəyik".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**